

**Qax Rayon Uşaq İncəsənət Məktəbi 1966-cı ildə yaradılmışdır. Yaradıldığı dövrdə iki ixtisas- tar və fortepiano fəaliyyət göstərmişdir. 1980-ci ildə xoreoqrafiya, təsviri incəsənət şöbələrinin açılması ilə əlaqədar bu musiqi ocağı Uşaq İncəsənət məktəbinə çevrilmişdir.**

# Maraqlı musiqi nömrələri

**Hazırda məktəbdə fortepiano, skripka, tar, kamança, qarmon, klarnet, nağara, xanəndəlik, xoreoqrafiya və təsviri incəsənət ixtisasları fəaliyyət göstərir. Məktəbdə 9 ixtisas üzrə 390 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 94 müəllim məşğul olur.**

Məktəbin şagirdləri respublika və beynəlxalq səviyyəli müsabiqələrdə iştirak etmiş, mükafata layiq yerləri tutmuşlar. 2009-cu ildə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilən "Novruz Bahar bayramı" adlı Respublika müsabiqəsində rayon İncəsənət məktəbinin şagirdi Kərimli Günel Faiq qızı I yerə çıxmış, I dərəcəli diplomla və pulla mükafatlandırılmışdır.

Belorusiyanın Minsk şəhərində keçirilən "Planetin uşaqları dostluq edir" adlı II Beynəlxalq rəsm müsabiqəsində rayon Uşaq İncəsənət məktəbinin iki şagirdi - İradə Hüseynova və Nazlı Nadirova diploma layiq görülüblər.

May ayının son həftəsində Bakı şəhərində keçirilən II Respublika Rəqs Festivalında rayon Uşaq İncəsənət məktəbinin "Tumurcuq" rəqs kollektivi rayonumuzu təmsil etmişdir. Kollektiv festivalın diplomu və qiymətli hədiyyəsi ilə mükafatlandırılmışdır.

Məktəbdə tarixi gün və bayramlar münasibətilə müxtəlif tədbirlər keçirilir. Uşaq İncəsənət məktəbi ildə iki dəfə rayon ictimaiyyəti qarşısında hesabat konserti ilə çıxış edirlər.

Məktəbin kollektivi rayonun ictimai-siyasi həyatında fəallıq göstərir, mədəni-kütləvi tədbirlərdə yaxından iştirak edirlər. Uşaqların ifa etdiyi şən və rəngarəng rəqslər, maraqlı musiqi nömrələri rayon əhalisi tərəfindən böyük sevinc və alqışlarla qarşılanır.

Uşaqların istedad və bacarıqları, tədbirlərdə uğurlu çıxışları rayon rəhbərliyinin diqqətindən yayınmır. Rayonda mədəniyyətin inkişafına önəm verən rayon rəhbərliyi tərəfindən məktəbin rəqs və xor kollektivlərinə paltarlar tikdirilmişdir.

Mədəni-kütləvi tədbirlərdə fərqlənən və müsabiqələrdə yer tutan şagirdlər rayon rəhbərliyi tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

**Məktəbə yeni direktor Tünzalə Şəkiliyeva təyin olunmuşdur. Tünzalə xanım ali təhsilli fortepiano müəllimidir. 30 ilə yaxındır ki, bu kollektivdə çalışır.**

● B. ZAYRALIQIZI